# Emissiya prospekti (səhm)

| Bəndlər | Qeydlər |
|---|---|
| | |
| **Bəyanat** | |
| emissiya prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə | Nümunə:<br>Biz, aşağıda imza edənlər,<br>1. Bu Emissiya prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.<br>2. ____________ Cəmiyyətinin hər birinin nominal dəyəri ____ (sözlə ifadəsi) manat olan ____ (sözlə ifadəsi) ədəd adi, adlı, sənədsiz, səhmlərin Emissiya prospektinə daxil edilən bütün məlumatlar həqiqi faktlara əsaslanır, heç bir fakt gizlədilməmişdir və bunun üçün bütün lazımi tədbirlər görülmüşdür.<br><br>*Emissiya prospektinə daxil edilmiş bütün məlumatlara və ya müəyyən bir hissənə dair məsul olan bütün fiziki (hər birinin soyadı, adı və atasının adı, tutduqları vəzifə) və hüquqi (adları və qeydiyyatda olduğu ünvanları) şəxslərin siyahısı. Həmin şəxslərin imzası və imzalanma tarixi.* |
| **Mündəricat** | Mündəricat aydın və təfərrüatlı göstərilməlidir. |
| **1. Xəbərdarlıqlar** | |
| 1.1. Bu sənəd emissiya prospektinin giriş hissəsidir | |
| 1.2. Qiymətli kağızlara investisiya etmək barədə hər hansı bir qərar investorun emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir | |
| 1.3. Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyəti daşıyırlar. | |
| **Xülasə hissə** | **Xülasə prospektin ümumi həcminin 7%-dən və ya 15 səhifədən artıq olmamalıdır. Xülasədə olan məlumat aydın və başa düşülən formada təqdim edilməlidir** |
| **2. Emitent və zamin (olduqda) haqqında məlumat** | |
| 2.1. Emitentin tam adı | |
| 2.2. Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə | |
| 2.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri və cari il üzrə fəaliyyət kateqoriyası və coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin tədqiqi | Bu bənddə emitentdən rəqabət apardığı əsas bazarların təsviri tələb olunur. Emitent fəaliyyət göstərdiyi bazarların coğrafi əhatə dairəsini (yerli, regional və ya beynəlxalq), həmin bazarların əsas xüsusiyyətlərini və həcmini göstərir. Həmçinin bazarda mövcud olan əsas rəqiblər, ümumi rəqabət mühiti, emitentin bazar payı və rəqabət üstünlükləri (məsələn, məhsulun keyfiyyəti, qiymət siyasəti, texnoloji üstünlüklər və s.) barədə məlumat verilir. Bununla yanaşı, bazarın inkişaf tendensiyaları və gələcək perspektivləri barədə də məlumat verilə bilər. Burada coğrafi amillər dedikdə yerli və xarici bazardakı fəaliyyət nəzərdə tutulur. Emitentin idxal və ixracı, yerli bazarda və xarici ölkədəki satış və xidmətləri nəzərə alınaraq gəlirləri, mallar üzrə idxal göstəriciləri barədə məlumat göstərilməlidir. Aktual məlumatların verilməsi tövsiyə olunur. |
| 2.4. Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən ən vacib son tendensiyaların təsviri | Emitentin fəaliyyət göstərdiyi bazardakı tendensiyalar, rəqabət mühiti və emitentin mövqeyi, tənzimləyici dəyişikliklər, texnolojik yeniliklər və s. kimi mövcud olan tendensiyalar barədə məlumat verilir. |
| 2.5. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri | Emitentin digər hüquqi şəxslərdə birbaşa və ya dolayısı ilə iştirak payları və ya nəzarət imkanları mövcuddursa, bu bənddə həmin hüquqi şəxslər barədə aşağıdakı məlumatlar təqdim olunur:<br>Hüquqi şəxsin adı və hüquqi ünvanı;<br>Emitentin həmin hüquqi şəxsdəki payı (faizlə);<br>Emitentin həmin hüquqi şəxsdəki iştirakının mahiyyəti (həmin hüquqi şəxsin əsas fəaliyyət istiqaməti və iştirakın emitent üçün əhəmiyyəti barədə məlumat). |
| 2.6. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarların adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti | |

| | |
|---|---|
| 2.7. Mühüm iştirak payına sahib olan səhmdarların malik olduğu səhmlər üzrə səs hüquqları barədə məlumat | Məlumatların Mülki Məcəllə və cəmiyyətin nizamnaməsi ilə müyyən edilən tələblərə uyğunluğuna diqqət edilməsi tövsiyə olunur. |
| 2.8. Mühüm iştirak payına sahib olan səhmdarlar tərəfindən emitentə nəzarətin xüsusiyyəti | Məlumatların Mülki Məcəllə və cəmiyyətin nizamnaməsi ilə müyyən edilən tələblərə uyğunluğuna diqqət edilməsi tövsiyə olunur. |
| 2.9. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Maliyyə məlumatları ətraflı izah ilə müşayiət olunmalıdır | Hər bir il üçün məlumatların audit olunub-olunmadığı qeyd olunur. Əgər aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verilirsə, bu zaman əvvəlki maliyyə ilində eyni dövr ilə müqayisəli məlumatlar verilir. Məsələn cari il üzrə 2-ci rüb üzrə məlumatlar təqdim olunduqda əvvəlki ilin 2-ci rübü ilə müqayisəli verilir. Seçilmiş maliyyə məlumatı qısa formata, əsas göstəricilər (aktivlər, öhdəliklər, kapital, mənfəət və s.) olmaqla göstərilir. Maliyyə göstəricilərində əhəmiyyətli dəyişikliklər barədə ətraflı izah verilir. |
| 2.10. Seçilmiş proforma maliyyə məlumatı. Seçilmiş proforma maliyyə məlumatının emitentin fərziyyəyə əsaslanan vəziyyətinin təsvir edilməsi və buna görə də şirkətin faktiki maliyyə göstəricilərini özündə əks etdirməməsi barədə qeyd | "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalara Əlavə № 3-ün tələblərinə uyğun tərtib olunmalıdır. Belə bir maliyyə məlumatı olmadıqda "Mövcud deyil" qeyd edilə bilər. |
| 2.11. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd | "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında" Qaydaların 11,3-cü bəndinə əsasən gəlir proqnozunun emitent uçot siyasətinə uyğunluğu haqqında müstəqil auditorun hesabatı gəlir proqnozuna əlavə edilməlidir. Əgər gəlir proqnozu yoxdursa, "Mövcud deyil" kimi qeyd olunması kifayətdir. |
| 2.12. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri | Bu bənddə, emitentin son illər üzrə müstəqil auditor tərəfindən aparılmış audit yoxlamasının nəticələri barədə qısa, lakin əsas məqamları əhatə edən məlumat verilir. Məlumata audit şirkətinin tam adı, rəyin qısa təsviri, rəyin hansı hansı dövrü əhatə etdiyi, auditor rəyində hər hansı mühüm qeyd və ya vurğulanan məsələlərin olub-olmaması ( risklər və s.) daxil edilir. |
| 2.13. Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə vəsaitlərin mənbələri barədə məlumat. | |
| **3. Qiymətli kağızlar haqqında məlumat** | |
| 3.1. Səhmlərin növü və qeydiyyat nömrəsi (tədavüldə olan səhmlər üçün) | Bu bənddə **tədavüldə** olan səhmlərin növü və Mərkəzi Bank tərəfindən verilən dövlət qeydiyyat nömrəsinin qeyd olunması tələb olunur. |
| 3.2. Emitentin emissiya hesabında olan səhmlərinin sayı və nominal dəyəri. Emitentin törəmə müəssisələrinə məxsus emitentin səhmlərinin sayı və nominal dəyəri | Emissiya hesabında olan səhmlər dedikdə emitent tərəfindən geri satın alınmış və Milli Depozit Mərkəzində emitentə aid emissiya hesabında uçotu aparılan səhmlər nəzərdə tutulur.<br>Törəmə müəssilərinə məxsus emitentin səhməri dedikdə isə törəmə şirkətinin emitentdə olan səhmləri nəzərdə tutulur (mövcud olduğu halda məlumat verilir). |
| 3.3. Səhmlərlə təsbit olunan hüquqlar | Bu bənddə səhmdarlara qanunvericilik və emitentin nizamnaməsi ilə verilmiş əsas hüquqlar barədə məlumat verilir. |
| 3.4. Səhmlərlə təsbit olunan məhdudiyyətlər | Bu bənddə səhmlərin alqı-satqısı və onlardan irəli gələn hüquqların həyata keçirilməsi ilə bağlı tətbiq edilən məhdudiyyətlər barədə məlumat verilir. |
| 3.5. Səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri | Bu bənddə emitent tərəfindən səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması məqsədilə müraciət olunub-olunmaması barədə məlumat verilir. Əgər belə müraciət nəzərdə tutulubsa, səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazarın adı, həmin bazar barədə qısa məlumat (ünvanı, əlaqə vasitələri, internet səhifəsi, fəaliyyət istiqamətləri) təqdim olunur və "Bakı Fond Birjasında qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinqi" Qaydalarına istinad edilməklə səhmlərin həmin bazarda ticarətə buraxılması şərtləri izah edilir. |
| 3.6. Emitentin dividend siyasətinin təsviri. | Emitentin son illər (mövcuddursa son 3 il) üzrə ödədiyi dividendlər barədə (dividend ödənişləri olduqda) və dividend ödənişləri ilə bağlı cari il üzrə planlar barədə məlumat verilir. Məlumatların Mülki Məcəlləyə və cəmiyyətin nizamnaməsi ilə müyyən edilən tələblərə uyğunluğuna diqqət edilməsi tövsiyə edilir. |

| | |
|---|---|
| **4. Risk faktorları** | |
| 4.1. Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları | Bu bənddə müvafiq qiymətli kağızla bağlı risklər investorların diqqətinə çatdırılır. Səhmlərin likvidliyi, təkrar bazarının olub-olmaması, gələcəkdə qiymətli kağızlar bazarındakı vəziyyətin səhmlərin dəyərinə necə təsir edə biləcəyi, şirkətin maliyyə vəziyyətinin səhmlərin dəyərinə necə təsir edə biləcəyi, dividend siyasəti və s. bu bənddə qeyd olunur. |
| 4.2. Emitentin və ya onun fəaliyyət göstərdiyi sahəyə xas olan risk faktorları | Burada emitentin və ya onun fəaliyyət göstərdiyi sahəyə xas olan spesifik risk faktorları barədə məlumat verilir. Məsələn, emitent tikinti sahəsində fəaliyyət göstərirsə o sahəyə məxsus olan risklər barədə məlumat verilir. |
| **5. Təklif** | |
| 5.1. Emissiyanın həyata keçirilməsindən nəzərdə tutulan xərclər və cəlb olunacaq vəsaitlərin xalis məbləği | Bu bənddə emissiya ilə bağlı əvvəlcədən bilinən xərclər barədə məlumat verilir. Bakı Fond Birjası, investisiya şirkəti, hesablaşma agenti olan bankla bağlı xərclər, dövlət rüsumu və s. xərclər nəzərə alınmalıdır. Bütün xərclər emissiya məbləğindən çıxılmaqla xalis məbləğ qeyd olunmalıdır. |
| 5.2. Təklifin səbəbləri, gəlirlərin istifadəsi, gəlirlərin nəzərdə tutulan xalis məbləği | Təklifin əsaslandıran şərtlər, daxil olacaq vəsaitin istifadə istiqamət(lər)i barədə ətraflı məlumat verilir. Bütün xərclər nəzərə alınmaqla gəlirin xalis məbləği qeyd olunmalıdır. |
| 5.3. Təklifin şərtlərinin təsviri | Yerləşdirmə ilə bağlı müddətlər, məlumatların açıqlanması, yerləşdirmə üsulu və qaydası kimi təklifin əsas şərtləri ilə bağlı məlumat qeyd olunur. |
| 5.4. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat | Emissiyada iştirak edən şəxslərin (BFB, MDM, anderrayter şirkət(lər)in və s.) maraqları və maraqların toqquşması halları ilə bağlı məlumat verilir. Tərəflər arasında maraqlar toqquşması halının mövcud olub-olmaması barədə ətraflı məlumat verilir. |
| 5.5. Təklif edilən səhmlərin mülkiyyətçilərinin adı və ünvanı, emitent ilə hər hansı bir səhmdar arasında müəyyən olunmuş müddət ərzində həmin səhmdara məxsus səhmlərin satılmaması haqqında olan müqavilələr barədə məlumat, iştirak edən tərəflər, müqavilənin müddəti | Daha öncə yerləşdirilmiş səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması nəzərdə tutulduqda emissiya prospekti tərtib olunarkən tələb olunan məlumatdır. Əgər bu hal mövcud deyilsə, "mövcud deyil" qeyd edilə bilər. |
| 5.6. Yeni səhm təklifi nəticəsində mövcud səhm mülkiyyətçilərinin paylarında olan dəyişmə ehtimalları (miqdarı və faizi göstərilməklə) | Yeni buraxılan səhmlərin mövcud səhmdarlar tərəfindən əldə olunduğu və olunmadığı halda dəyişmə ehtimalının necə olacağı qeyd olunur (miqdar və faizlə). |
| 5.7. Səhm alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği | Məlumat verilərkən Vergi Məcəlləsi, BFB, MDM, İnvestisiya şirkətləri dövlət rüsümları ilə bağlı xərclər və hər hansı bir güzəşt(lər) mövcuddursa qeyd edilir. |
| 5.8. Qiymətli kağızların yerləşdirilməsində iştirak edəcək anderrayter barədə məlumat (adı, lisenziyasının nömrəsi, verilmə tarixi) | Əgər anderraytinq xidməti bir neçə investisiya şirkəti tərəfindən həyata keçiriləcəksə "İnvestisiya şirkətləri və banklar tərəfindən investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi" Qaydasının tələbinə uyğun olaraq əsas anderrayterin hansı olduğu qeyd olunmaqla hər bir şirkət barədə bəndin tələbinə uyğun məlumat verilir. |
| 5.9. Qiymətli kağızların təklifinin və yerləşdirilməsinin başlama və başa çatma tarixləri | Abunə yazılışı ilə yerləşdirilmə nəzərdə tutulduqda abunə yazılışının başlama və başaçatma tarixi, habelə yerləşdirmənin başlanma və başaçatma tarixləri barədə məlumatlar qeyd olunur. |
| 5.10. Anderrayter tərəfindən təklifin şərtləri barədə məlumatın investorlara təklif zamanı təqdim olunması barədə qeyd. | Məlumatın harada və hansı şərtlərlə təqdim olunacağı barədə məlumat verilir. |
| **Səhmlərin emitenti barədə tələb olunan məlumat** | |
| **6. Emitentin auditorları barədə məlumat** | |
| 6.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat | |
| 6.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə, səbəbləri göstərilməklə məlumat. | Əvəzlənmə və ya dəyişdirilmə olduğu təqdirdə səbəbləri göstərilr. |
| **7. Seçilmiş maliyyə məlumatı** | |
| 7.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildikdə əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. | Hər bir il üzrə maliyyə məlumatlarının audit olunub-olunmadığı barədə qeyd göstərilir. Əgər aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verilirsə, bu zaman əvvəlki maliyyə ilində eyni dövr ilə müqayisəli formada verilir, məsələn cari il üzrə 2-ci rüb üzrə məlumatlar təqdim olunduqda əvvəlki ilin 2-ci rübü ilə müqayisəli olmalıdır. Seçilmiş maliyyə məlumatnın qısa formada, əsas göstəricilər (aktivlər, öhdəliklər, kapital, mənfəət və s.) olmaqla göstərilməsi tövsiyə edilir. |

| | |
|---|---|
| **8. Emitent barədə məlumat** | |
| 8.1. Emitentin tam adı, təşkilati-hüquqi forması | |
| 8.2. Emitentin dövlət qeydiyyatının rekvizitləri | Emitentin hüquqi şəxs kimi dövlət qeydiyyatına alındığı tarix və dövlət qeydiyyat nömrəsi qeyd olunur. |
| 8.3. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən bu dəyişikliklərin dövlət qeydiyyatı tarixi | |
| 8.4. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları | |
| 8.5. Son üç maliyyə ili ərzində hər bir maliyyə ili üçün emitentin əsas investisiyalarının təsviri (məbləği göstərilməklə) | |
| 8.6. Emitentin cari investisiyalarının təsviri, onların coğrafi bölüşdürülməsi (xarici və daxili) və maliyyələşdirmə üsulu (daxili və xarici) | |
| 8.7. İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri. | |
| **9. Emitentin biznesinin icmalı** | |
| 9.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə), emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərin əsas kateqoriyalarını göstərərək, emitentin əməliyyatlarının və əsas fəaliyyətlərinin xarakteri ilə bağlı əsas faktorlar və onların təsviri | Bu bənddə emitentin son üç maliyyə ili (üç ildən az fəaliyyət göstərdiyi təqdirdə həmin illər üzrə) üzrə fəaliyyətinə dair təhlil təqdim edilir. Emitent tərəfindən həmin illərdə satılmış məhsulların və ya göstərilmiş xidmətlərin əsas kateqoriyaları dəqiq olaraq (məsələn, məhsul növləri, xidmət sahələri üzrə) göstəriir, həmin məlumatlar hər maliyyə ili üzrə ayrı-ayrılıqda maliyyə göstəriciləri (mümkün olduqda satış həcmləri və ya gəlirlər) ilə müşayiət olunur.<br><br>Həmçinin, emitentin əməliyyatlarının və əsas fəaliyyətlərinin xarakterini formalaşdıran və ya ona əhəmiyyətli təsir göstərən əsas faktorlar qeyd olunur. Belə faktorlara nümunə kimi bazar şəraiti, tənzimləyici mühitdə dəyişikliklər, rəqabət səviyyəsi, əsas müştəri və ya təchizatçılarla münasibətlər, innovasiyalar, istehsal gücü, mövsümi və ya regional xüsusiyyətlər göstərilə bilər. |
| 9.2. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu | Bu bənddə emitentin son 1 ildə təqdim etdiyi və ya inkişaf etdirdiyi yeni məhsul və ya xidmətlər barədə ətraflı məlumat verilir. Məhsul və ya xidmətlərin texniki, kommersiya və ya digər mühüm xüsusiyyətləri qeyd edilir, habelə onların hazırkı inkişaf statusu – məsələn, konseptual mərhələ, sınaq (pilot) mərhələsi, istifadəyə verilməsi və ya bazara çıxarılması kimi – açıqlanır. |
| 9.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri və son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) fəaliyyət kateqoriyası və coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin qruplaşdırılması | Bu bənddə emitentin rəqabət apardığı əsas bazarların, o cümlədən fəaliyyət kateqoriyası və coğrafi bölgələr üzrə təsviri təqdim edilir. Hər maliyyə ili üzrə ayrı-ayrılıqda emitentin ümumi gəlirləri fəaliyyət sahələri (məsələn, məhsul və ya xidmət kateqoriyaları) və coğrafi amillər (yerli və ya xarici bazarlar, regionlar) üzrə qruplaşdırılaraq göstərilir. |
| 9.4. 9.1-ci, 9.2-ci və 9.3-cü bəndlərində göstərilmiş məlumatlara təsir edən amillər | |
| 9.5. Emitentin patent və lisenziyalardan, sənaye, kommersiya və ya maliyyə müqavilələrindən və ya istehsal proseslərindən asılılığı barədə məlumat | Bu bənddə emitentin fəaliyyətində mühüm rol oynayan patentlər, lisenziyalar, sənaye, kommersiya və maliyyə müqavilələri barədə ətraflı məlumat verilir. Həmçinin, emitentin istehsal prosesləri ilə bağlı mövcud texnoloji və əməliyyat asılılıqları vurğulanması tövsiyə olunur. |
| 9.6. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması. | Bu bənddə prospektin digər bəndlərində rəqabət mövqeyi ilə bağlı məlumat (hər hansı bir üstünlük) qeyd olunduğu təqdirdə bu məlumatın açıqlandığı mənbələr barədə məlumat (keçid və s.) təqdim olunur. |
| **10. Digər təşkilatlarda iştirak** | |
| 10.1. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri | Emitentin digər hüquqi şəxslərdə birbaşa və ya dolayısı ilə iştirak payları və ya nəzarət imkanları mövcuddursa, bu bənddə həmin hüquqi şəxslər barədə aşağıdakı məlumatlar təqdim olunması tövsiyə edilir:<br>Hüquqi şəxsin adı və hüquqi ünvanı;<br>Emitentin həmin hüquqi şəxsdəki payı (faizlə);<br>Emitentin həmin hüquqi şəxsdəki iştirakının mahiyyəti (həmin hüquqi şəxsin əsas fəaliyyət istiqaməti və iştirakın emitent üçün əhəmiyyəti barədə məlumat). |
| 10.2. Emitentin bütün törəmə və digər müəssisələrdə iştirakının payı (faizlə), onların tam adı, olduğu yer. | Bu bənddə emitentin törəmə və digər müəssisələrdə (şirkətlərdə) konkret payı faizlə göstərilir, həmçinin həmin şirkətlərin tam adı və yerləşdiyi ünvan qeyd olunur.<br><br>Burada iştiraklar tam olaraq kvantitativ formada təqdim olunur — hansı şirkətdə neçə faiz paya malikdir, hansı şəhər və ya ölkədə yerləşir və s. |

| 11. Emitentin əsas vəsaitləri | |
|---|---|
| 11.1. Emitentin icarəyə verilmiş, mövcud olan və əldə olunması nəzərdə tutulan əsas vəsaitləri | |
| 11.2. Əsas vəsaitlərin istifadəsinə təsir edə biləcək ətraf mühitlə (emitentin fəaliyyət istiqamətindən asılı olaraq əsas vəsaitlərin xarici amillərin təsiri altında baş verə biləcək dəyişiklik ) bağlı olan amillərin təsviri. | Bu bənddə emitentin əsas vəsaitlərinin istifadəsinə və onların dəyərinə təsir göstərə biləcək ətraf mühit faktorları barədə məlumat təqdim edilir. Ətraf mühit amilləri emitentin fəaliyyət istiqamətindən asılı olaraq müxtəlif xarakter daşıya bilər və bunlar əsas vəsaitlərin fiziki vəziyyətinə, istismar müddətinə, texniki göstəricilərinə və ya əməliyyat xərclərinə təsir edə bilər.<br><br>Məsələn, sənaye və ya istehsal sahəsində fəaliyyət göstərən emitentlər üçün ekoloji tələblər, çirklənmə nəzarəti, təbii fəlakətlər, iqlim dəyişiklikləri və ya təbii resursların məhdudluğu əsas vəsaitlərin işləkliyinə və yenilənmə xərclərinə təsir edə bilər. Xidmət sektorunda isə məlumat bazası və ya avadanlıqların qorunması üçün ətraf mühit şəraitinin dəyişməsi nəzərə alına bilər. |

| | |
|---|---|
| **12. Emitentin maliyyə və əməliyyat nəticələrinin icmalı** | |
| 12.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) mənfəət və zərər göstəriciləri | Son üç maliyyə ili ərzində audit olunub-olunmadığı qeyd olunmaqla mənfəət və zərər göstəriciləri əlavə olunur. |
| 12.2. Emitentin maliyyə vəziyyətində dəyişikliklər baş verdiyi halda həmin dəyişikliklər və onlar barədə məlumat | Əgər emitentin maliyyə vəziyyətində mühüm dəyişikliklər baş veribsə, bu dəyişikliklərin mahiyyəti, səbəbləri və onların emitentin fəaliyyətinə və öhdəliklərinin yerinə yetirilməsinə mümkün təsirləri barədə qısa və konkret məlumat təqdim olunur. Belə dəyişikliklərə iri həcmli borclanma, əsas aktivlərin əldə olunması və ya satılması, mənfəət və ya zərərin kəskin dəyişməsi və digər maliyyə sabitliyinə təsir edən amillər daxildir. Əgər son maliyyə hesabatından bu günədək əhəmiyyətli dəyişiklik baş verməyibsə, bu hal barədə məlumat qeyd olunur. |
| 12.3. Emitentin əməliyyatlardan gələn gəlirinə təsir edən amillər və gəlirin bundan nə qədər asılı olduğunu göstərən faktorlar | Bu bənddə emitentin əməliyyatlardan əldə etdiyi gəlirə təsir edən əsas daxili və xarici amillər ətraflı şəkildə qeyd edilir. Amillər arasında bazar tələbi və təklifi, qiymət dəyişiklikləri, rəqabət mühiti, xammal və resursların qiymətləri, iqtisadi şərait, tənzimləyici dəyişikliklər, texnoloji yeniliklər və şirkətin daxili idarəetmə keyfiyyəti ola bilər. |
| 12.4. Xalis satışlarda və ya gəlirlərdə dəyişikliklər maliyyə hesabatlarında açıqlandığı halda bu dəyişikliklərin səbəblərinin təsviri | |
| 12.5. İqtisadi, fiskal, monetar, siyasi və digər amillərin emitentin əməliyyatlarına təsir etmiş və ya birbaşa və ya dolayı yolla təsir edə bilən faktorlar barədə məlumat. | Bu bənddə emitentin əməliyyatlarına təsir göstərən əsas makroiqtisadi və siyasi amillər haqqında məlumat təqdim edilir. Buraya ölkənin iqtisadi inkişaf tempindəki dəyişikliklər, fiskal siyasətin (vergilər, dövlət xərcləri), monetar siyasətin (faiz dərəcələrinin tənzimlənməsi, açıq bazar əməliyyatları, məcburi ehtiyat normaları, valyuta siyasəti və s.), eləcə də siyasi stabillik, qanunvericilikdə dəyişikliklər və digər sosial-iqtisadi faktorlar daxil edilir.<br><br>Bu amillərin emitentin fəaliyyətinə birbaşa və ya dolayı təsirləri — məsələn, emitentin xərclərinin artması və ya azalması, satış həcminin dəyişməsi, investisiya mühitinin vəziyyəti, bazar riskləri və s. — ətraflı şəkildə açıqlanır. |
| **13. Emitentin kapital resursları** | **Bu bənddəki məlumatların maliyyə hesabatlarına uyğun olmasına diqqət edilməsi tövsiyə olunur.** |
| 13.1. Emitentin kapital qoyuluşları (qısa və uzun müddətli) | |
| 13.2.Emitentin pul vəsaitlərinin hərəkətinin mənbələrinin və məbləğlərinin izahı və təsviri | |
| 13.3. Emitentin borclanma ehtiyacları və maliyyələşmə strukturu barədə məlumat | |
| 13.4. Emitentin əməliyyatlarına birbaşa və ya dolayı yolla təsir etmiş və ya təsir edə bilən kapital qoyuluşlarının istifadəsinə dair hər hansı bir məhdudiyyətlərlə əlaqəli məlumat | Bu bənddə emitentin kapital qoyuluşlarının istifadəsi zamanı mövcud olan hər hansı məhdudiyyətlər, o cümlədən hüquqi, maliyyə, tənzimləyici və ya əməliyyat xarakterli məhdudiyyətlər barədə məlumat verilir. |
| 13.5. Bu prospektin 8.7-ci və 11.1-ci bəndlərində qeyd olunmuş öhdəlikləri yerinə yetirmək üçün tələb olunan vəsaitlərin mənbələri barədə məlumat. | |
| **14.Tədqiqatlar, lisenziyalar və patentlər** | |
| 14.1.Son üç maliyyə ili ərzində emitentin hesabına aparılmış tədqiqat və inkişaf fəaliyyətlərinə sərf olunmuş məbləğ daxil olmaqla, emitentin tədqiqatları, patentləri, əqli mülkiyyət obyektləri və lisenziyaları barədə məlumat. | Bu bənddə emitentin son üç maliyyə ili ərzində apardığı tədqiqat və inkişaf fəaliyyətləri, bu fəaliyyətlərə sərf olunan vəsaitin həcmi, əldə olunmuş nəticələr (məsələn, məhsul və ya proses təkmilləşdirmələri) barədə qısa məlumat verilir. Həmçinin emitentin adına qeydiyyatdan keçmiş patentləri, istifadə etdiyi və ya sahib olduğu əqli mülkiyyət obyektləri (məsələn, brendlər, proqram təminatları, texnologiyalar), eləcə də sahib olduğu və ya istifadə hüququna malik olduğu lisenziyalar barədə də məlumat təqdim edilir. Əgər belə fəaliyyət və ya obyektlər mövcud deyilsə, bu hal barədə müvafiq qeyd verilir. |
| **15. Tendensiyalar barədə məlumat** | |
| 15.1.Cari maliyyə ilinin əvvəlindən səhm buraxılışı haqqında qərarın qəbul edilməsi tarixinədək emitentin fəaliyyət göstərdiyi iqtisadi sahədə (istehsalat, satışların həcmi və mal-material ehtiyatları, xərclər və satış qiymətləri) müşahidə olunan tendensiyalar | Bu bənddə cari maliyyə ilinin əvvəlindən səhm buraxılışı haqqında qərarın qəbul edildiyi vaxta qədər emitentin fəaliyyət göstərdiyi iqtisadi sahədə baş vermiş əsas tendensiyalar barədə məlumat verilir. Tendensiyalar istehsal həcminin dəyişməsi, satışların həcmi, mal-material ehtiyatlarının idarə olunması, xərclərin strukturunda və səviyyəsindəki dəyişikliklər, eləcə də satış qiymətlərindəki meylləri əhatə edə bilər. |
| 15.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat. | Emitentin fəaliyyət göstərdiyi bazardakı tendensiyalar, rəqabət mühiti və emitentin mövqeyi, tənzimləyici dəyişikliklər, texnolojik yeniliklər, emitentin öhdəlikləri və s. barədə məlumat verilir. |

| | |
|---|---|
| **16. Gəlir proqnozu** | **Gəlir proqnozu verildikdə onun əsasını təşkil edən əsas fərziyyələr haqqında hesabat və gəlir proqnozunun emitent uçot siyasətinə uyğunluğu haqqında müstəqil auditorun hesabatı prospektə əlavə edilməsi tələbinə diqqət edilməlidir. Əgər gəlir proqnozu yoxdursa, "mövcud deyil" kimi qeyd olunması kifayətdir.** |
| 16.1. Emitent öz mülahizəsinə əsasən emissiya prospektinə, 16.2-ci – 16.5-ci bəndlərin tələblərinə uyğun, gəlir proqnozunu emissiya prospektinə əlavə edir | |
| 16.2. Emitent tərəfindən müəyyən edilən və proqnozun əsasını təşkil edən əsas fərziyyələr haqqında hesabat gəlir proqnozuna əlavə edilməlidir. Hesabatda emitentin idarə heyətinin təsir edə biləcəyi və həmçinin idarə heyətinin təsirindən kənarda olan amillər və fərziyyələr arasındakı fərq aydın şəkildə göstərilməlidir | |
| 16.3.Gəlir proqnozunun emitent uçot siyasətinə uyğunluğu haqqında müstəqil auditorun hesabatı gəlir proqnozuna əlavə edilməlidir | |
| 16.4.Gəlir proqnozu və ya hesablaması keçmiş maliyyə məlumatları ilə müqayisə edilə bilən əsasda hazırlanmalıdır | |
| 16.5.Emissiya prospektinə əvvəl dərc olunmuş gəlir proqnozu daxil edildikdə, həmin proqnozun emissiya prospektinin tərtib olunması tarixinə etibarlılığı barədə məlumat təqdim edilməlidir. | |
| **17. Emitentin təsisçiləri, idarəetmə və nəzarət orqanları** | |
| 17.1. Emitent 5 ildən az müddətdə mövcud olduğu təqdirdə, hər birinin soyadı, adı, atasının adı və tutduğu vəzifələr göstərilməklə onun təsisçilərə haqqında məlumat | Əgər emitent 5 ildən çox müddətdə mövcuddursa bu bənddə bu barədə qeyd verilməsi tövsiyə olunur. |
| 17.2. Emitentin idarəetmə və nəzarət orqanlarının üzvü olan hər bir şəxs barədə aşağıdakı məlumatlar: | Məlumatların cədvəl şəklində göstərilməsi tövsiyə olunur. |
| 17.2.1. adı, soyadı, atasının adı | |
| 17.2.2. təhsili barədə məlumat | |
| 17.2.3. hazırda tutduğu vəzifə və son beş il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | |
| 17.2.4. bu şəxslər arasında olan hər hansı yaxın qohumluğun mövcudluğu haqqında məlumat | |
| 17.2.5. son beş il ərzində şəxsin vəzifə saxtakarlığı ilə bağlı məhkumluğun olub-olmaması haqqında məlumat | |
| 17.2.6. şəxsin hər hansı bir hüquqi şəxsin idarə edilməsində rəhbər vəzifə tutduğu zaman həmin hüquqi şəxsin ləğv olunması, müflis elan olunması və ya müflisləşmə prosesinin başlanması haqqında məlumat | |
| 17.2.7. şəxsin xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə məlumat | |
| 17.2.8. bu şəxslərin emitentin nizamnamə kapitalında payı və ya emitentin səhmlərinə olan opsionları. | Bu bənddə emitentin təsisçilərinin, eləcə də idarə heyəti üzvlərinin və digər əsas şəxslərinin nizamnamə kapitalında sahib olduqları paylar və ya səhmlərə olan opsionları barədə məlumat təqdim edilir. |
| **18. Emitentin idarəedilməsində iştirak edən şəxslərin mükafatlandırılması, imtiyazları və digər kompensasiyaları** | |
| 18.1. Bu prospektin 17.2-ci bəndində göstərilən şəxslərə maliyyə ilinin yekunu ilə əlaqədar ödənilmiş mükafatların (hər hansı şərti və ya təxirə salınmış kompensasiyalar da daxil olmaqla) məbləği, emitent və onun törəmə şirkətləri tərəfindən həmin şəxslərə göstərilən xidmətlər | |
| 18.2.Kompensasiya və ya yardımlar vermək məqsədilə emitent və ya emitentin törəmə müəssisələri tərəfindən ayrılmış məbləğlər. | |

| | |
|---|---|
| **19. İdarə heyətinin işgüzar praktikası** | |
| 19.1. Maliyyə ilinin nəticələrinə əsasən 17.2-ci bənddə göstərilən şəxslər haqqında aşağıdakı məlumatlar: | |
| 19.1.1. cari vəzifədə xidmət etdiyi müddət və səlahiyyət müddətinin başa çatma tarixi | |
| 19.1.2. səlahiyyətlərinə xitam verilməsi ilə bağlı müavinət vermək üçün emitent və ya onun törəmə müəssisələri ilə inzibati, idarəetmə və ya nəzarət orqanlarının xidmət müqavilələri barədə məlumat | |
| 19.2. Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı | |
| 19.3. Emitentin, qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə izahat. | Bu bənddə emitentin qeydiyyatda olduğu ölkədə tətbiq olunan korporativ idarəetmə standartlarına uyğunluğu barədə hesabat təqdim edilir. Hesabatda şirkətin idarəetmə strukturu, idarə heyətinin fəaliyyəti, şəffaflıq, hesabatlılıq və maraqlı tərəflərin hüquqlarının qorunması kimi əsas aspektlərin həmin standartlara uyğunluğu qiymətləndirilir.<br><br>Əgər emitent korporativ idarəetmə standartlarına tam uyğun deyilsə, bu halda uyğun olmama səbəbləri və əlaqədar tədbirlər barədə izahat verilir. |
| **20. Emitentin işçi heyəti** | |
| 20.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) və səhm buraxılışı haqqında qərar qəbul edilənə qədər olan dövr müddətində emitentin müvəqqəti və daimi işçilərin sayını göstərməklə işçilərinin sayı | |
| 20.2. İşçilərin emitentin nizamnamə kapitalında iştirakı | |
| 20.3. Emitentin nizamnamə kapitalına işçiləri cəlb etmək üçün proqramlar haqqında məlumat. | |
| **21. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar** | |
| 21.1.Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan səhmdarların adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti | On faiz və daha çox paya malik olan səhmdarlar barədə tələb olunan məlumatları qeyd etmək kifayətdir. |
| 21.2.Mühüm iştirak payına sahib olan səhmdarların malik olduğu səhmlər üzrə səs hüquqları haqqında məlumat | Mülki Məcəlləyə və emitentin nizamnaməsinə uyğun qeyd olunması tövsiyə olunur. |
| 21.3.Mühüm iştirak payına sahib olan səhmdarlar tərəfindən emitentə nəzarətin xüsusiyyətləri və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün tədbirlərin təsviri | Bu bənddə mühüm iştirak payına sahib olan səhmdarların emitentə nəzarət xüsusiyyətlərini və bu nəzarətin sui-istifadə edilməməsi üçün görülən tədbirlər qeyd edilir. Buraya səhmdarların idarəetmədə təsiri, səsvermə hüquqları və strateji qərarlara təsir mexanizmləri, eləcə də şəffaflığı təmin etmək, minoritar səhmdarlarının hüquqlarını qorumaq və maraqlar toqquşmasının qarşısını almaq üçün korporativ idarəetmə qaydaları, daxili nəzarəti kimi tədbirlər daxildir. Məlumatların Mülki Məcəlləyə və emitentin nizamnaməsinə uyğun olmasına diqqət edilməsi tövsiyə edilir. |
| 21.4.Mühüm iştirak payına sahib olan səhmdarların dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat. | |
| **22. Aidiyyəti şəxslərlə əməliyyatlar** | |
| 22.1. Son üç maliyyə ili ərzində emitentin aidiyyəti şəxslərlə bağlanmış müqavilələri barədə aşağıdakı məlumat Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq tərtib edilmiş məlumat | |
| 22.2. Məlumat MHBS uyğun olaraq tərtib edilmədiyi təqdirdə, həmin məlumat aşağıdakıları özündə əks etdirməlidir: | |
| 22.2.1. müqavilənin mahiyyəti və ölçüsü | |
| 22.2.2. aidiyyəti şəxslər öhdəliyi tam icra etmədiyi təqdirdə bu öhdəliyin hansı səbəbdən tam icra edilmədiyinin izahı | |
| 22.2.3. emitentin ödənilməmiş borclarının məbləği | |
| 22.2.4. aidiyyəti şəxslərlə olan əməliyyatların emitentin ümumi dövriyyəsində payı. | |

| | |
|---|---|
| **23. Emitentin maliyyə məlumatları** | |
| 23.1.Emitentin başa çatmış son üç maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları | Bu bənddə emitentin başa çatmış son üç maliyyə ili üzrə auditdən keçmiş maliyyə hesabatları təqdim olunur. Hər maliyyə ili üzrə aşağıdakı hesabatlar təqdim edilir:<br>Maliyyə vəziyyəti haqqında hesabat;<br>Mənfəət və zərər haqqında hesabat;<br>Pul vəsaitlərinin hərəkəti haqqında hesabat;<br>Kapitalda dəyişikliklər haqqında hesabat;<br>Maliyyə hesabatlarına dair izahat qeydlər.<br>Son başa çatmış il üzrə audit hesabatı hazır olmadıqda maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmaqla təqdim edilməsi və həmin il üzrə məlumatların audit edilmədiyinin aydın qeyd olunması tövsiyə edilir.<br>Emitentin hesabatları konolidasiya olunmuş formada tərtib olunursa bu zaman konsolidasiya olunmuş maliyyə hesabatları təqdim edilir. |
| 23.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları | |
| 23.3. Emitent yeni yaradılmış hüquqi şəxs olduğu ilə əlaqədar maliyyə hesabatlarını tərtib edə bilmədiyi təqdirdə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydaların 3 saylı əlavəsinə uyğun olaraq maliyyə hesabatlarının əvəzinə proforma maliyyə hesabatını təqdim etməlidir | |
| 23.4. Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir: | |
| 23.4.1. maliyyə vəziyyəti haqqında hesabat | |
| 23.4.2. mənfəət və zərər haqqında hesabat | |
| 23.4.3. kapitalda dəyişiklik haqqında hesabat | |
| 23.4.4. nağd pul vəsaitlərinin hərəkəti haqqında hesabat | |
| 23.4.5. uçot siyasətləri və izahlı qeydlər. | |
| 23.5. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda) | 23.1-ci bənddə qeyd olunan məlumat konsolidasiya edilmiş olarsa, bu bənddə 23.1-ə istinad edərək o bənddə hesabatların konsolidasiya olunmuş olduğu qeyd olunmalıdır. |
| 23.6. Aralıq və digər maliyyə məlumatları | |
| 23.7. Emitent son audit edilmiş maliyyə hesabatlarının təsdiq edilmə tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onları emissiya prospektinə daxil etməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə prospektə bu qeyd edilməlidir | Bu bənddə, əgər emitent son audit edilmiş illik maliyyə hesabatlarından sonra rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etmişdirsə, həmin hesabatlar emissiya prospektinə daxil edilir.<br>Əgər bu hesabatlar audit olunubsa, prospektə müvafiq auditor rəyi də əlavə olunur.<br>Əgər audit olunmayıbsa, bu hal aydın şəkildə qeyd edilir və hesabatların auditdən keçmədiyi göstərilir. Müraciət tarixinə uyğun olaraq sonuncu rüb üzrə maliyyə hesabatları əlavə edilir. Müvafiq hesabatlar əvvəlki ilin müvafiq dövrü ilə müqayisəli təqdim olunur. |
| 23.8. Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman aralıq audit edilmiş və ya edilməmiş ən azı yarımillik maliyyə hesabatı emissiya prospektinə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ili ilə eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir | 23.7-ci bənddə göstərilən maliyyə məlumatı ilə eyni olarsa, əvvəlki bəndə istinad etmək tövsiyə olunur. |
| 23.9. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) emitentin səhmlərinin sayını göstərməklə, hər səhmə düşən və ödənilmiş dividendlər haqqında məlumat | |

| | |
|---|---|
| 23.10. Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla) | Bu bənddə məhkəmə mübahisələri və digər hüquqi proseslər barədə məlumat verilir. |
| 23.11. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat. | Bu bənddə emitentin son audit olunmuş və ya dərc edilmiş maliyyə hesabatlarından sonra onun maliyyə vəziyyətində baş verən mühüm dəyişikliklər barədə məlumat təqdim olunur.<br><br>Aşağıdakılar barədə məlumat daxil edilə bilər:<br><br>-Likvidlik və ya öhdəliklərə dair dəyişikliklər<br><br>-Əhəmiyyətli kredit və ya borc öhdəliklərinin alınması və ya ödənməsi<br><br>-Əsas aktivlərin alqı-satqısı və ya dəyərindəki ciddi dəyişikliklər<br><br>-Maliyyə göstəricilərini əhəmiyyətli dərəcədə təsir edən hüquqi, tənzimləyici və ya iqtisadi hadisələr<br><br>-Əməliyyat gəlirləri və ya xərclərində kəskin dəyişikliklər<br><br>-Nizamnamə kapitalında dəyişikliklər (məsələn, yeni səhm buraxılışı)<br><br>Əgər maliyyə vəziyyətində əhəmiyyətli dəyişiklik baş verməyibsə, bu hal aydın şəkildə qeyd edilir (məsələn: “Son maliyyə hesabatlarının dərcindən sonra emitentin maliyyə vəziyyətində əhəmiyyətli dəyişiklik baş verməmişdir”). |
| **24. Emitent haqqında əlavə məlumatlar** | |
| 24.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin sayı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu | |
| 24.2. Emitentin emissiya hesabında olan səhmlərinin sayı və nominal dəyəri | Emissiya hesabında olan səhmlər dedikdə emitent tərəfindən geri satın alınmış və emitentin emissiya hesabında uçotu aparılan səhmlər nəzərdə tutulur. |
| 24.3. Emitentin törəmə müəssisələrinə məxsus emitentin səhmlərinin sayı və nominal dəyəri | Bu bənddə emitentin törəmə müəssisələrinə məxsus emitentin səhmləri barədə aşağıdakı məlumatların göstərilməsi tövsiyə olunur:<br><br>-Törəmə müəssisənin tam adı və hüquqi ünvanı<br><br>-Törəmə müəssisənin mülkiyyətində olan səhmlərin sayı<br><br>-Bu səhmlərin nominal dəyəri<br><br>-Səhmlərin ümumi nizamnamə kapitalındakı payı (faizlə) |
| 24.4. Əsas şərtlərini və məbləğini göstərməklə emitentin konvertasiya edilə bilən və təmin olunmuş qiymətli kağızları barədə məlumat | |
| 24.5. Emitentin səhmlərinə olan opsionlar barədə məlumat | |
| 24.6. Son üç il ərzində nizamnamə kapitalında baş verən dəyişikliklər barədə məlumat | |
| 24.7. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat: | Bu bənddəki məlumatlar emitentin nizamnaməsinə uyğun qeyd olunmasına diqqət edilməsi tövsiyə edilir. |
| 24.7.1. fəaliyyət və məqsədlərin təsviri | |
| 24.7.2. idarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı | |
| 24.7.3. mövcud səhmlərin hər bir növü üzrə məhdudiyyətlərin təsviri | |
| 24.7.4. səhmdarların illik və növbədənkənar ümumi yığıncaqlarına çağırılma qaydası. | |
| 24.8. Son 2 il ərzində emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat. | Bu bənddə emissiya olunan qiymətli kağızlar üzrə öhdəliklərin yerinə yetirilməsinə təsir göstərə biləcək, lakin emitentin əsas fəaliyyəti ilə birbaşa bağlı olmayan müqavilələr barədə məlumat təqdim edilir. Buraya girov və təminat müqavilələri, üçüncü tərəflərlə bağlanmış maliyyə və ya hüquqi xarakterli öhdəliklər, o cümlədən zaminlik müqavilələri və digər oxşar müqavilələr daxil ola bilər. |

| Səhmlər haqqında tələb olunan məlumat | |
|---|---|
| **25. Əsas məlumat** | |
| 25.1. Emitentin dövriyyə kapitalı (carı aktivlərdən cari öhdəlikləri çıxmaqla) barədə hesabat | |
| 25.2. Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etdiyi və ya lazım olan əlavə vəsaitlər və onların mənbələri barədə məlumat | |
| 25.3. Emissiya prospektinin tərtib edilməsi tarixinə qədər son üç ay ərzində emitentin kapitallaşma və borcları (zəmanətli və zəmanətsiz, təminatlı və təminatsız, dolayı və şərti borcluluq) barədə hesabat | |
| 25.4. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat | Emissiyada iştirak edən şəxslərin (BFB, MDM, anderrayter şirkət(lər)in və s.) maraqları və maraqların toqquşması halları ilə bağlı məlumat verilir. |
| 25.5. Səhmlərin təklifinin səbəbləri və səhmlərin yerləşdirilməsindən və ya satılmasından əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat | Bu bənddə səhmlərin buraxılması və ya satışının məqsədləri və həmin prosesdən əldə olunacaq vəsaitlərin hansı məqsədlərə istifadə olunacağı barədə ətraflı məlumat təqdim olunur. |
| 25.6. Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə lazım olan digər pul vəsaitlərinin məbləği və mənbələri | |
| 25.7. Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat. | |
| **26. Təklif edilən səhmlər haqqında məlumat** | |
| 26.1. Qiymətli kağızların emissiyasını tənzimləyən Azərbaycan Respublikasının qanunları | |
| 26.2. Səhmlərin növü | |
| 26.3. Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan səhmlər barədə məlumat ayrı ayrılıqda göstərilməklə) | |
| 26.4. Səhmlərin qeydiyyat nömrəsi (tədavüldə olan səhmlər üçün) | Bu bənddə tədavüldə olan səhmlər üçün Mərkəzi Bank tərəfindən verilən dövlət qeydiyyat nömrəsinin qeyd olunması tələb olunur. |
| 26.5. Səhmlərlə təsbit olunan hüquqlar | |
| 26.6. Səhmlərlə təsbit olunan məhdudiyyətlər | |
| 26.7. Səhmlərin saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer | |
| 26.8. Dividend siyasəti | |
| 26.9. Üstünlük hüququ tətbiq edildiyi halda, həmin hüququn həyata keçirilməsi qaydası və müddəti, yaxud üstünlük hüququnun tətbiq edilmədiyi barədə qeyd | Məlumat təqdim edilərkən "Qiymətli kağızlar bazarı haqqında" Qanunun və "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar"ın tələbləri nəzərə alınır. |
| 26.10. Səhmlərin geri satın alınma şərtləri (olduqda) | |
| 26.11. Səhmlərin konvertasiyası şərtləri (olduqda) | |
| 26.12. Səhmlərin emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı | |
| 26.13. Səhmlərin əldə edilməsi üçün məhdudiyyətlər (olduqda) | Bu bənddə təklif edilən səhmlərin əldə edilməsində mövcud olan hər hansı məhdudiyyətlər barədə məlumat verilir. Məhdudiyyətlər aşağıdakı kateqoriyalara aid ola bilər:<br><br>-Hüquqi məhdudiyyətlər:<br>Məsələn, qanunvericilikdə müəyyən investor kateqoriyalarının səhmləri əldə etməsi qadağan edilə bilər (xarici vətəndaşlar, müəyyən sahələrdə fəaliyyət göstərən şəxslər və s.).<br>-İnzibati və ya tənzimləyici məhdudiyyətlər:<br>Məsələn, səhmlərin müəyyən vaxt ərzində satışının qadağan olunması, müəyyən investisiya fondları və ya qurumlar üçün alınma limitləri və s.<br>-Emitentin hüquqi sənədləri:<br>Səhmlərin əldə edilməsinə dair şirkətin nizamnaməsində və ya səhmdarlar arasında bağlanmış müqavilələrdə nəzərdə tutulan məhdudiyyətlər.<br>-Digər məhdudiyyətlər:<br>Məsələn, müəyyən investor qruplarına öncəlik hüququnun verilməsi, səhmlərin müəyyən seqmentdə yerləşdirilməsi və ya satış zamanı tətbiq olunan digər qaydalar. |
| 26.14. Səhm emissiyası hər hansı bir məcburi qoşulma və ya ayrılma ilə bağlı olduqda bu barədə məlumat | |
| 26.15. Keçən və cari maliyyə ili ərzində emitentin səhmlərinin alınmasına dair məcburi təkliflərin mövcudluğu. Bu təkliflər və onların nəticələri ilə bağlı qiymət və ya konvertasiya şərtləri barədə məlumat | Keçən və cari maliyyə ili ərzində emitentin səhmlərinin alınmasına dair məcburi təkliflər olubsa, prospektdə bu təkliflərin detalları göstərilir. Həmin təkliflərin vaxtı, şərtləri (məsələn, təklif olunan qiymət) və nəticələri (təklifin qəbul olunub-olunmaması, alınan səhmlərin miqdarı və s.) barədə aydın və tam məlumat tələb olunur. |
| 26.16. Dividendlərdən mənbədə verginin tutulması barədə məlumat. Dividendlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi. | |

| | |
|---|---|
| **27. Təklifin şərtləri** | |
| 27.1. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri | Abunə yazılışı ilə yerləşdirilmə nəzərdə tutulduqda abunə yazılışının başlama və başaçatma tarixi, habelə yerləşdirmənin başlanma və başaçatma tarixləri barədə məlumatlar qeyd olunur. |
| 27.2. Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası | "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 10-cu maddəsinə baxılması tövsiyə olunur. |
| 27.3. Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı | "Qiymətli kağızlar bazarı haqqında" Qanunun təklifin dayandırılması və ya təxirə salınması halları ilə bağlı tələblərinin nəzərə alınması tövsiyə edilir. |
| 27.4. Təklifin nəzərdə tutulan müddətdən tez başa çatdırılmasının şərtləri | |
| 27.5. Səhmlərə abunə yazılışının qaydası | “İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar”ın tələblərinə uyğun müddətlər, habelə səhmdarların üstünlük hüququnun təmin edilməsi qaydas.nını nəzərə alınması tövsiyə edilir. |
| 27.6. Abunə yazılışının minimum və maksimum məbləği | |
| 27.7. Abunə yazılışı zamanı sifarişlərin geri çağırılması və abunəçilər tərəfindən ödənilmiş artıq məbləğin geri qaytarılması qaydası | |
| 27.8. Abunə yazılışı zamanı sifarişlərin məbləği təklifin məbləğindən çox olduqda səhmlərin yerləşdirilməsi qaydası | |
| 27.9. Bir şəxs tərəfindən, abunə yazılışı zamanı, verilən bir neçə sifarişlərin qəbul edilib- edilmədiyinin şərtləri | Bu bənddə abunə yazılışı zamanı bir investorun eyni anda və ya ardıcıl olaraq verdiyi bir neçə sifarişin necə qəbul ediləcəyi və bu sifarişlərin qəbul və ya rədd edilmə şərtləri barədə məlumat təqdim edilməlidir. |
| 27.10. Səhmlərin dəyərinin ödənilməsi və investorların səhmlərlə təchizatı qaydası | "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 8.1-ci maddəsinə və “İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar”ın 3.5-ci və 3.7-ci maddəsinə uyğun qeyd olunmalıdır. |
| 27.11. Üstünlük hüququnun istifadəsi qaydası və həmin hüquqdan istifadə olunmadıqda bunun nəticələri barədə məlumat | "Qiymətli kağızlar bazarı haqqında" Qanunun və “İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar”ın tələbləri nəzərə alınmaqla məlumat verilir. |
| 27.12. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat | Potensial investorların kateqoriyaları (fərdi, institusional və s.) barədə ümumi məlumat təqdim edilir. |
| 27.13. Səhmlərin satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat | |
| 27.14. Emitentin məlumatları əsasında yerləşdirilən səhmlərin mühüm iştirak payına sahib olan səhmdarlar və ya emitentin idarəetmə və nəzarət orqanların üzvləri tərəfindən və ya təklifin 5%-dən çoxunu almaq niyyəti olan şəxslər barədə məlumat | |
| 27.15. İnstutisional və pərakəndə investorlar və emitentin işçiləri üçün təklifin hissələrə bölünməsi barədə məlumat | |
| 27.16. Yerləşdirmə zamanı bəzi investor qruplarına əvvəlcədən müəyyən olunmuş səhmlərin imtiyazlı alışının təsviri, bu cür imtiyazlı alış üçün ayrılmış səhmlərin faiz nisbəti və belə investor qruplarına daxil olma meyarları | |
| 27.17. Səhmlərin təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə səhmlərin qiymətinin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxs(lər) barədə məlumat | |
| 27.18. Satış qiymətinin açıqlanma qaydası | |
| 27.19. Səhm alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği | Yalnız alıcının ödəməli olduğu xərvlər vergi qeyd olunur.Əvvəlcə ödəmə mənbəyindən vergi tutulması barədə məlumat qeyd olunması, daha sonra hüquqi və fiziki şəxslərə münasibətdə Vergi Məcəlləsinə uyğun məlumat ayrılıqda qeyd olunması tövsiyə olunur. Xərclərdə BFB-nin ticarət haqqı,investisiya şirkətinin xidmət haqqı, bankın xidmət haqqı nəzərə alınır. |
| 27.20. Səhmləri öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyanın nömrəsi, verilmə tarixi), xidmət haqqı. | Öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirməsi qeyd olunmaqla müvafiq məlumatlar verilir. Əgər anderraytinq xidməti bir neçə investisiya şirkəti tərəfindən həyata keçiriləcəksə "İnvestisiya şirkətləri və banklar tərəfindən investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi" Qaydasının tələbinə uyğun olaraq əsas anderrayterin hansı olduğu qeyd olunmaqla hər bir şirkət barədə bəndin tələbinə uyğun məlumat verilməlidir. |

| | |
|---|---|
| **28. Ticarətə buraxılma və onun tənzimlənməsi** | |
| 28.1. Səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri | Bu bənddə emitent tərəfindən səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması məqsədilə müraciət olunub-olunmaması barədə məlumat verilir. Əgər belə müraciət nəzərdə tutulubsa, səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazarın adı göstərilməli, həmin bazar barədə qısa məlumat (ünvanı, əlaqə vasitələri, internet səhifəsi, fəaliyyət istiqamətləri) təqdim olunmalı və "Bakı Fond Birjasında qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinqi" Qaydalarına istinad edilməklə səhmlərin həmin bazarda ticarətə buraxılması şərtləri izah olunmalıdır. |
| 28.2. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat | Bu bənddə emitentin qiymətli kağızlarının ticarətə çıxarıldığı tənzimlənən bazarlar barədə tam və dəqiq məlumat verilir. |
| 28.3. Market meyker(lər) barədə məlumat (olduqda) | |
| 28.4. Səhmlərin qiymətinin sabitləşdirməyə yönəlmiş əqdlərin bağlanması nəzərdə tutulduğu halda aşağıdakılar qeyd olunmalıdır: | |
| 28.4.1. Sabitləşmənin həyata keçirilə bilməsi barədə məlumat | |
| 28.4.2. Sabitləşmənin həyata keçirilməsi müddətinin əvvəli və sonu | |
| 28.4.3.Qiymətin təyin olunmuş minimum və maksimum həddi. | |
| **29. Təklif edilən səhmlərin mülkiyyətçiləri haqqında məlumat** | **Daha öncə yerləşdirilmiş səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması nəzərdə tutulduqda emissiya prospekti tərtib olunarkən tələb olunan məlumatdır. Əgər bu hal mövcud deyilsə, "mövcud deyil" qeyd edilə bilər.** |
| 29.1. Təklif edilən səhmlərin mülkiyyətçilərinin adı və ünvanı, eyni zamanda onlar ilə emitent arasında son üç il ərzində olan münasibətlərin xüsusiyyətləri | |
| 29.2. Səhmdarlara məxsus olan təklif edilən qiymətli kağızların sayı və növü | |
| 29.3. Emitent ilə hər hansı bir səhmdar arasında müəyyən olunmuş müddət ərzində həmin səhmdara məxsus səhmlərin satılmaması haqqında olan müqavilələr barədə aşağıdakı məlumat: | |
| 29.3.1. iştirak edən tərəflər | |
| 29.3.2. müqavilənin qısa məzmunu və istisnalar | |
| 29.3.3. müqavilənin bağlanma müddəti. | |
| **30. Emissiya xərci** | |
| 30.1. Emissiyanın həyata keçirilməsindən nəzərdə tutulan xərclər və cəlb olunacaq vəsaitlərin xalis məbləği. | Bu bənddə Bakı Fond Birjası, investisiya şirkəti, hesablaşma agenti olan bankla bağlı xərclər, habelə dövlət rüsumu nəzərə alınır. Bütün xərclər nəzərə alınmaqla xalis məbləğ qeyd olunur. |
| **31. Payın azalması** | |
| 31.1. Yeni səhm təklifi nəticəsində mövcud səhm mülkiyyətçilərinin paylarında olan dəyişmə ehtimalları. | Yeni buraxılan səhmlərin mövcud səhmdarlar tərəfindən əldə olunduğu və olunmadığı halda dəyişmə ehtimalının necə olacağı qeyd olunur (miqdar və faizlə). |